# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsinin ildönümünə həsr olunan dəyirmi masa baş tutdu. Yanvarın 17-də faciə ilə əlaqədar dəyirmi masa baş tutdu. Əvvəlcə tədbir iştirakçıları şəhidlərin əziz xatirəsini yad ediblər. Konfransı giriş sözü ilə açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İmperiya ordusunun Bakıda və ölkəmizin digər şəhər və rayonlarında törətdiyi qanlı hadisələrdən danışıb. Qeyd olunub ki, 20 Yanvarda Azərbaycan xalqına qarşı törədilmiş bu cinayət həm də bütün bəşəriyyətə, insanlığa qarşı həyata keçirilib. Rektor vurğulayıb ki, 20 Yanvar hadisələri ilə əlaqədar ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında kəskin bəyanatla çıxış edib, Bakıda törədilən qırğınların təşkilatçılarını cinayətkar adlandırıb, baş verənlərə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qətiyyətlə tələb edib. Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra şəhidlərin xatirəsini əbədiləşdirmək üçün həmin tarix ümumxalq hüzn günü elan edilib, hadisəyə rəsmi siyasi və hüquqi qiymət verilib. U.Ələkbərov diqqətə çatdırıb ki, Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət göstərir. Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova və Beynəlxalq münasibətlər kafedrasının professoru, Qarabağ İrsini Araşdırma Mərkəzinin müdiri Elçin Əhmədov faciə ilə bağlı geniş nitq ilə çıxış etmişlər. Onlar 1990-cı ilin o qış günlərində xalqımızın böyük faciə ilə üzləşdiyini, özünün Vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, müstəqillik uğrunda mübarizliyini bütün dünyaya nümayiş etdirdiyini qeyd ediblər.



***Dövlət İdarəçilik Akademiyasının Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Vətənpərvərlik" və "Kitab" klublarının birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 25-ci il dönümünə həsr olunmuş tədbir keçirilmişdir***

16 yanvar 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Vətənpərvərlik" və "Kitab" klublarının birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 25-ci il dönümünə həsr olunmuş "Qanlı yanvardan qürurlu gələcəyə" adlı tədbir keçirilmişdir. Tədbirin əvvəlində şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirin açılış nitqini DİA TGT-nin baş katibi Asiman Əhmədov edərək şəhidlərə Allahdan rəhmət diləmiş, anım günü ilə bağlı çıxış etmişdir. Tədbirdə DİA-nın Tarix kafedrasının professoru, tarix elmləri doktoru Havva Məmmədova iştirak edərək xalqımızın yaddaşına qanla yazılmış faciənin tarixi əhəmiyyəti haqqında geniş nitq ilə çıxış etmişdir.

***20 Yanvar şəhidləri anıldı***

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəhbərliyi və tələbələri facia qurbanlarının əziz xatirəsini yad etmək məqsədilə Şəhidlər Xiyabanını ziyarət etdilər, şəhidlərin məzarları üzərinə gül dəstələri qoydular.

***2 fevral – Gənclər Günü münasibətilə Dövlət İdarəçilik Akademiyasının bir qrup tələbəsi təltif olunmuşlar***

Giriş nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Prezdenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən danışmış, ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlər haqqında qeydlər aparmışdır. Rektor tələbələrin təhsil həyatında və ictimai fəaliyyətlərdə aktiv



iştirakını yüksək qiymətləndirmiş, onlara gələcək fəaliyyətlərində uğurlar arzu etmişdir. Daha sonra sosial iş, təlim – tərbiyə və təşkilati məsələlər üzrə müşavir Zaur Məmmədov çıxış edərək İdarəçilik Akademiyasının tələbələrinin son 1 il ərzində əldə etdikləri yüksək nailiyyətlər haqqında danışaraq ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən, dövlət qulluğu, beyin mərkəzləri, media və ictimai – siyasi sektorlarda gənclərin əldə etdikləri nailiyyətlər haqqında danışmışdır. Z. Məmmədov gənclər hərəkatları, könüllü təşkilatlarında, həm kəmiyyət, həm də, keyfiyyət baxımından məhz akademiyanın tələbələrinin xüsusilə seçildiklərini diqqətə çatdırmışdır. O, Akademiyanın gənclərinin fəal şəkildə vətəndaş mövqeyini nümayiş etdirdiklərini, onların ölkənin ictimai – siyasi həyatında aktiv iştirakına toxunaraq, dövlətçi və vətənpərvər ruhda yetişən gənclərin fəaliyyətlərinə toxunmuşdur. Sonda, tələbələrin mükafatlandırılma mərasimi baş tutmuşdur. Azərbaycan Respublikasının Prezdenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Tədris işləri üzrə prorektor Əlikram Abdullayev, Ümumi işlər üzrə prorektor Mirağa Seyidli, sosial məsələlər, təlim – tərbiyə, təşkilati məsələlər üzrə müşavir Zaur Məmmədov, Siyasi İdarəetmə Fakültəsinin dekanı Murtəza Həsənov, İnzibati İdarəetmə Fakültəsinin dekanı Elnur Əliyev və Tələbələrlə İş üzrə Koordinator Murad Həsənxanlı tələbələrə sertifikatları təqdim etmişlər. DİA Tələbə Gənclər Təşkilatının sədri İxtiyar Mahmudzadə çıxış edərək rektor, akademik Urxan Ələkbərova göstərilən diqqətə görə təşəkkürünü bildirmiş və gələcək fəaliyyət planı haqqında məlumat vermişdir.

### *Bakı Təşəbbüs Qrupu tərəfindən Akademiyanın əməkdaşı və tələbəsi mükafatlandırılmışlar*

2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə mükafatlandırılma mərasimi baş tutmuşdur. Tədbirdə DİA-nın tələbələrlə iş üzrə koordinatoru, həmçinin Bakı Təşəbbüs Qrupunun könüllülər platformasının rəhbəri Murad Həsənxanlı və DİA Tələbə Gənclər Təşkilatının sədri İxtiyar Mahmudzadə səmərəli əməkdaşlıq fəaliyyətinə görə təltif olunmuşlar. Gəncləri təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

### *Dövlət İdarəçilik Akademiyasının müəllimi mükafatlandırılmışdır*

Gənclər Günü ərəfəsində AMEA Rəyasət Heyətinin iclasında 2024-cü il üzrə AMEA-nın “İlin gənc alimi” mükafatı müsabiqəsinin nəticələri elan olunub.

Qaliblər sırasında, “ilin gənc alimi” nomimasiyası üzrə AMEA Mərkəzi Elmi Kitabxasının beynəlxalq əlaqələr üzrə baş mütəxəssisi, Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının əməkdaşı, siyasi elmlər üzrə fəlsəfə doktoru Züriyə Qarayeva da var.

Qeyd edək ki, Zuriyə Qarayeva politologiya ixtisası üzrə bakalaviaturanı Dövlət İdarəçilik Akademiyasında bitirib və daha sonra “siyasi institutlar və sistemlər” üzrə elmi dərəcə almışdır.

***DİA-da "Akademik yazı bacarıqları" mövzusunda növbəti seminar keçirilib***

12 fevral 2025-ci il tarixində Elm və beynəlxalq əlaqələr şöbəsinin müdiri Elvin Əzizbəyov tərəfindən elmi tədqiqatların səmərəliliyinin artırılması məqsədi ilə akademiyada təhsil alan doktorant və dissertantlar üçün "Akademik yazı bacarıqları" mövzusunda seminar keçirilmişdir. Seminarda iştirakçılara elmin müasir istiqamətləri, yeni tədqiqat metodları, elmi nəticələrin yüksək təsir əmsallı (impact factor) jurnalların tələblərinə uyğun tərtib olunması, məqalələrin beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə çap olunması prosesi izah olunmuşdur. Eyni zamanda, doktorantlara Web of Science, SCOPUS, Springer, Ulakbim, Philosopher's Index, ERIH PLUS kimi Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərində jurnal seçimi, ədəbiyyat siyahısının tərtibi, akademik dürüstlük və digər məsələlər haqqında ətraflı məlumat verilmişdir.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) "Yenilikçi və İnkişaf Mükafatı"na layiq görülüb***

Mükafatın təqdim olunması məqsədilə Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının (ATGTİ) sədri Rəşad Zeynalov Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovla görüşüb.

Rəşad Zeynalov bu ali təhsil müəssisəsinin tələbə və məzunlarının Azərbaycanın ictimai – siyasi həyatında hər zaman önəmli rol oynadığını xüsusilə vurğulamışdır. O, DİA rəhbərliyinin daima Tələbə Gənclər Təşkilatına



dəstək olduğunu, gənclərin inkişafı istiqamətində uğurlu fəaliyyətini vurğulamış, göstərilən diqqətə görə rektor akademik U.Ələkbərova təşəkkürünü bildirdi. O, eyni zamanda ATGT- nin gördüyü işlər barədə, gələcəkdə planlaşdırılan layihələr barədə danışaraq DİA ilə bu istiqamətdə əməkdaşlığın perspektivləri haqqında fikirlərini bildirib.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik U.Ələkbərov, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu gənclər siyasətindən danışaraq ölkədə bütün sahələrdə davam edən inkişaf haqqında fikirlərini bildirdi. Rektor, dövlət gənclər siyasətinin bir parçası olan ATGTİ-nin gənclərin təhsil və təhsildən kənar ictimai fəaliyyətlərinin artırılması stiqamətində səmərəli layihələr həyata keçirdiyini qeyd edərək təşkilata uğurlar arzu etmişdir.

## *DİA-da “Milli mənsubiyyət hüququnun konstitusion əsasları və tarixi aspektləri” mövzusunda beynəlxalq konfrans keçirilib*

Fevralın 18-də Bakıda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsman), Dövlət İdarəçilik Akademiyasının və Beynəlxalq Osmanlı Tədqiqatları Mərkəzinin birgə təşkilatçılığı ilə “Milli mənsubiyyət hüququnun konstitusion əsasları və tarixi aspektləri” mövzusunda beynəlxalq konfrans təşkil olunub.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov milli mənsubiyyət hüququ ilə bağlı fikirlərini bölüşüb.

Qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən tətbiq edilən müasir idarəçilik modeli sayəsində ölkəmiz dünya reytinqdə irəliləyir. Azərbaycan səmərəlilik baxımından da dünyada qabaqcıl ölkələr sırasındadır. Əlavə edib ki, ölkəmizdə tətbiq edilən yeni idarəetmə texnologiyaları sayəsində inklüziv cəmiyyətin formalaşdırılması sahəsində ciddi nəticələr qazanılıb.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva milli mənsubiyyət hüququ kimi məsələlərin müasir dövrdə vacibliyini qeyd edib, bu hüququn beynəlxalq hüquq normalarında əksini tapdığını diqqətə çatdırıb.

O təəssüflə vurğulayıb ki, beynəlxalq sənədlərdə, milli qanunvericilikdə milli mənsubiyyətə görə ayrı-seçkilik qadağan olunsa da, dünyada insanların milli və etnik mənsubiyyətinə görə təqib olunması, ayrı-seçkiliyə, soyqırımı kimi dəhşətli cinayətlərə məruz qalması hallarına rast gəlinir: “Azərbaycan bu siyasətin nəticələrindən ən çox zərər çəkmiş ölkələrdən biridir. XX əsrin əvvəllərində soyqırımına məruz qalmış xalqımız həmin əsrin sonlarından etibarən yenidən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü ilə özünü göstərən nifrət siyasətinin qurbanına çevrilib”.

Daha sonra Beynəlxalq Osmanlı Tədqiqatları Komitəsinin İdarə Heyətinin üzvü, məşhur türkiyəli tarixçi, professor İlbər Ortaylı “Müstəqilliyə aparan yol: Türk dünyası və Azərbaycan münasibətləri kontekstində” mövzusunda çıxış edib. O, Azərbaycan, Türkiyə və bütövlükdə Türk dünyasının ortaq tarixi barədə danışaraq, türk xalqlarının öz milli-mənəvi dəyərlərinə hörmətlə yanaşdığını, əsrlər boyu milli kimliyini qoruyub saxladığını vurğulayıb.

Professor bildirib ki, mərhum dövlət xadimi Heydər Əliyev Türk dünyası üçün unudulmaz liderdir. Onun “Bir millət, iki dövlət” kəlamı reallıqdır. Türkiyəli tarixçi vurğulayıb ki, Azərbaycan və Türkiyənin münasibətlərinin dünyada örnəyi yoxdur. Xarici siyasət baxımından da dostlarımız və düşmənlərimiz eynidir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova “Qərbi azərbay-







canlıların zorla çıxarılması və Ermənistan dövlətinin strateji məqsədləri" mövzusunda çıxış edib. Professor Ermənistandan qaçqın düşmüş soydaşlarımızın tarixi torpaqlarına qayıtmaq istəyini onların beynəlxalq konvensiyalarla təsbit edilən hüququ olduğunu bildirib.

Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Rüstəmova–Tohidi "Azərbaycanlıların milli mənsubiyyət hüququnun tanınması tarixi: Milli kimlikdən konstitusion hüquqa" mövzusunda çıxışında Cənubi Qafqazda azərbaycanlıların yeri, rolu və milli kimliyinin, milli mənsubiyyətin tanınması kimi məsələlərə tarixi-hüquqi prizmadan diqqəti çəkib.

Beynəlxalq konfrans müzakirələrlə davam edib.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün təlim baş tutdu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 21 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin yeni dövlət idarəçiliyi texnologiyaları: Suverenliyə aparan yol" mövzusunda 25 yerli icra hakimiyyəti orqanlarından 129 nəfər dövlət qulluqçuları qarşısında mühazirə ilə çıxış etdi.

Təlimdə, Azərbaycanın suverenliyinin tarixi və bu suverenliyi əldə etmək üçün Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm addımlar barədə ətraflı məlumat verilib. Akademik qeyd edib ki, Prezident İlham Əliyev ölkənin müstəqilliyini qorumaq və inkişafını təmin etmək üçün çoxsaylı islahatlar həyata keçirib, bu istiqamətdə dövlət idarəçiliyindəki təkmilləşdirmələr ölkənin güclənməsinə və beynəlxalq səviyyədə tanınmasına şərait yaradıb.

Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir çox uğurlara imza atılıb. Bu innovativ idarəetmə texnologiyalarının tətbiqi, ölkənin suverenliyini gücləndirmək və müstəqilliyini qorumaq məqsədini daşıyır.

Akademik təlim zamanı Azərbaycanın Konstitusiyasının əsas prinsiplərinin, o cümlədən suverenlik, müstəqillik və demokratik dəyərlərin qorunmasının, ölkə üçün mühüm bir zəmin yaratdığını qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin inkişaf strategiyasının bu dəyərlərə əsaslandığına xüsusi diqqət çəkilib.

Daha sonra rektor Urxan Ələkbərov vitse-prezidentlik institutunun yaradılması və Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsinin Azərbaycanın siyasi və idarəetmə strukturunda mühüm bir yenilik olaraq tarixə düşdüyünü qeyd edib. Belə ki, vitse-prezidentlik institutu, dövlətin idarəetmə qabiliyyətini daha da gücləndirərək, idarəetmə strukturunun çevikliyini artırıb və Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin inkişafı üçün əlavə bir dəstək mexanizmi təmin edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursu və bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi, ölkənin suverenliyinin möhkəmləndirilməsi və müstəqilliyinin təmin olunması məqsədini güdür. Rektor, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə "Yaşıl Enerji Zonasının" yaradılması ilə bağlı irəli sürdüyü strateji baxışın, Azərbaycanın enerji təhlükəsizliyini artırmaq və bərpa olunan



enerji sahəsində güclü bir mövqe əldə etmək məqsədi daşıdığını vurğulayıb.

Qeyd olunub ki, bu strateji addım Azərbaycanın yalnız iqtisadi inkişafını deyil, həm də milli suverenliyini və müstəqilliyini gücləndirir. Çünki enerji sahəsində özünə kifayət edən və bərpa olunan enerji mənbələrinə yönələn siyasət, ölkənin xarici enerji asılığını azaltmağa, eyni zamanda beynəlxalq səviyyədə enerji təhlükəsizliyi ilə bağlı mövqeyini möhkəmləndirməyə imkan verir. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bu təşəbbüslər, Azərbaycanın suverenliyinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm bir addım olaraq dəyərləndirilə bilər.

Təlim diskussiya formatında davam edib və uğurla başa çatıb.

### *Dövlət İdarəçilik Akademiyasının nümayəndə heyəti beynəlxalq forumda iştirak ediblər*

Dövlət İdarəçilik Akademiyasının Elm və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Elvin Əzizbəyov və ictimaiyyətlə əlaqələr üzrə müşavir Zaur Məmmədov 17,18 fevral 2025-ci il tarixlərində Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İnsan Resursları Ofisi tərəfindən İstanbul şəhərində təşkil olunan "İstedad əsaslı inkişaf" mövzusunda beynəlxalq forumda və Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin növbəti seminarında iştirak ediblər.

İstanbul Konqres Mərkəzində keçirilən və 36 ölkənin nümayəndə heyətinin yer aldığı forumda beynəlxalq təşkilatların, dövlət və özəl sektorun nümayəndələri və tanınmış alimlər iştirak ediblər. Forumun açılış mərasimində Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İnsan Resursları Ofisinin rəhbəri Doç. Dr. Salim Atay, Sənaye və texnologiya naziri Mehmet Fatih Kaçır, İstanbul valisi Davud Gül çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar.



## *"Dövlət İdarəçiliyində Analitik İdarəetmə və İnnovasiya" proqramının bağlanış mərasimi keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Dövlət İdarəçiliyində Analitik İdarəetmə və İnnovasiya" proqramının bağlanış mərasimi keçirilib.

Ilk olaraq Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə fakültəsinin dekanı, s.e.f.d., dosent Elnur Əliyev çıxış edib. O, Dövlət İdarəçilik Akademiyasının innovativ idarəetmə yanaşmalarına xüsusi önəm verdiyini, bu təşəbbüslərin dövlət qurumlarında müasir texnologiyaların tətbiqini sürətləndirmək, idarəetmədə çevikliyi artırmaq və qərarvermə prosesini daha effektiv, məlumat əsaslı etmək məqsədi daşıdığını bildirib. Dövlət İdarəçilik Akademiyasının bu proqramın əsas tədris və tədqiqat mərkəzi kimi çıxış edərək, dövlət idarəçilərinin yeni bacarıqlar qazanmasını təmin etdiyini və gələcəyin idarəçilərini süni intellekt, böyük verilənlər analitikası və innovativ idarəetmə prinsipləri ilə tanış edərək onları rəqəmsal transformasiyaya hazırladığını vurğulayıb. Elnur Əliyev həmçinin bildirib ki, bu yanaşma yalnız bu günün ehtiyaclarına cavab vermir, həm də idarəetmənin gələcəyini formalaşdırır.

Rəqəmsal İnkişaf Agentliyinin layihə meneceri Fidan Sadıqova proqramın icrası və əldə olunan nailiyyətlər barədə məlumat verib. O, proqramın dövlət idarəçiliyində rəqəmsal inkişafa və analitik yanaşmanın təkmilləşdirilməsinə verdiyi töhfəni və bu təşəbbüsün dövlət sektorunda innovasiya proseslərini gücləndirəcəyini bildiriib.

Təlimçi Qalib Əhmədov proqramın məzmunu, tədris prosesi və əldə olunan nəticələr haqqında məlumat verib. O, iştirakçıların məlumatların emalı və süni intellektin tətbiqi sahəsində qazandıqları praktiki bacarıqları vurğulayıb.



Tədbirin gedişatında məzun layihələr arasında seçilmiş üç layihə təqdim olunub. Nicat Səmədzadənin rəhbərliyi ilə hazırlanan "E-gov" layihəsi dövlət idarəçiliyində

rəqəmsal hökumətin qurulması istiqamətində innovativ yanaşmaların tətbiqini nümayiş etdirib. Fidan İbrahimovanın "Xəstəxanaların rəqəmsal idarəetmə sistemi" layihəsində səhiyyə sektorunda rəqəmsal transformasiyanın əhəmiyyətini vurğulanıb.

Sonda keçirilən səsvermə nəticəsində innovativ yanaşması və praktiki tətbiq imkanları ilə seçilən Nicat Səmədzadənin "E-gov" layihəsi qalib gəlib.

Proqram çərçivəsində iştirakçılar məlumatların emalı, qərarvermə prosesində süni intellektin tətbiqi və rəqəmsal transformasiya kimi vacib bacarıqlara yiyələniblər. Dövlət sektorunda müasir texnologiyaların rolunu artırmaq və idarəetmədə innovativ yanaşmaları tətbiq etmək məqsədi daşıyan bu təşəbbüs gələcək idarəçilər üçün mühüm bilik və təcrübə platforması oldu.

### *Dövlət İdarəçilik Akademiyasında Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar tədbir keçirilib*

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə əvvəlcə şəhidlərin və Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Konfransı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq, 1992-ci il fevral ayının 26-da Ermənistan silahlı birləşmələrinin Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüz törətdiklərini qeyd etdi. Rektor, bu tarixi hər bir vətəndaşın xüsusilə gənclərin bilməsini tövsiyə edərək, eyni zamanda bu hadisələri Azərbaycanın Respublikasının ərazi bütövlüyü yolunda, xalqımızın müstəqillik yolunda apardığı mübarizənin əsası kimi, xalqın qəhrəmanlığının, cəsarətinin nümayişi kimi xatırlamağın əhəmiyyətini bildirdi. U.Ələkbərov Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra Xocalıda baş verənlərə ilk dəfə olaraq siyasi – hüquqi qiymət verildiyini, bu hadisənin soyqırım aktı kimi təsbit olduğunu vurğuladı. O, ölkə prezidenti İlham Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımı haqqında həqiqətlərin artıq beynəlxalq ictimaiyyət tərəfindən tanındığını vurğulayaraq erməni şovinizminin ifşa olunduğunu qeyd etdi. Rektor 44 günlük müharibə və antiterror tədbirlərindən sonra Qarabağda əli qana bulaşmış şəxslərin cəzalanacaqlarına şübhəsinin olmadığını vurğulayaraq suverenliyin bərpasından sonra bölgədəki quruculuq işlərindən bəhs etdi. "Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu 44 günlük müharibə ərzində parlaq qələbəyə imza atdı. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində üçrəngli bayrağımızı



ucaltdı. Artıq həmin torpaqlarda Azərbaycan dövlətinin suverenliyi təmin olunub. Bu vacib tarixi nyüansları gənclər yaxşı bilməlidirlər".

Daha sonra tədbir çıxışlar formasında davam edib. Tarix kafedrasının professoru Havva Məmmədova Xocalı şəhərinin yüzlərlə əliyalın mülki əhalisinin müasir hərbi texnika ilə silahlanmış düşmənin qəfil və amansız hücumuna məruz qalmasından bəhs edərək, yüzlərlə günahsız insanın kütləvi şəkildə məhv edilməsi, qocalar, qadınlar, uşaqlar, hətta körpələrin ən dəhşətli üsul və vasitələrlə qətlə yetirilməsi, əhalinin əksəriyyətinin girov götürülərək insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşdiklərini xatırlatdı. "Bu gün Xocalıda, Şuşada, Xankəndidə Azərbaycan Bayrağının dalğalanması qəlbimizi qürur hissi ilə doldurur", – deyə Havva Məmmədova əlavə edib.

"Qarabağ irsinin araşdırılması mərkəzi"nin rəhbəri, Beynəlxalq münasibətlər kafedrasının professoru Elçin Əhmədov Xocalı soyqırımından 33 il ötsə də, onun ağrı-acılarının qəlbimizdə yaşadığını qeyd edərək, ermənilərin Xocalının dinc sakinlərinə qanlı divan tutmalarının yaddaşlardan silinməyəcəyini və bir gecədə məhv edilmiş Xocalı şəhərinin adının Ruanda, Srebrenitsa və Holokost ilə qoşa çəkildiyini vurğuladı.

"Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədiblər. Xocalı faciəsi isə 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olub. Bu dəhşətli soyqırım dünyanın gözü qarşısında baş verib, qəddarlığı və amansızlığı ilə fərqlənib".

Digər çıxış edənlər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində Zəfər qazanmaqla düşmənə dərs verdiyini vurğulayıblar. Xatırladılıb ki, 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olunub. Bütün keçmiş məcburi köçkünlər kimi, xocalılılar da artıq evlərinə qayıtmaqdadırlar.

### *DİA Tələbə Elmi Cəmiyyəti Xocalı soyqırımı ilə bağlı Dəyirmi masa keçirmişdir*

26 fevral 2022-ci il tarixində DİA Tələbə Elmi Cəmiyyəti tərəfindən "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir" mövzusunda Dəyirmi masa keçirilmişdir.

Tədbir başlamazdan əvvəl Xocalı soyqırımı qurbanlarının və Vətənimizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Dəyirmi masanı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq, 1992-c il fevral ayının 25-dən 26-na keçən gecə təcavüzkar Ermənistan dövlətinin silahlı qüvvələri tərəfindən keçmiş SSRİ-yə məxsus və həmin dövrdə Xankəndidə yerləşən 366-cı motoatıcı alayın iştirakı ilə xüsusi qəddarlıqla törədilmiş və öz miqyasına görə tarixdə analoqu olmayan Xocalı soyqırımı barədə ətraflı məlumat vermiş, bu qanlı faciənin bütün bəşəriyyətə qarşı amansız cinayət, dəhşətli terror aktı olduğunu vurğulamışdır. Natiq Azərbaycan tarixində bu dəhşətli soyqırım aktına yalnız Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra siyasi-hüquqi qiymətin verildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində aparılan işlərin Xocalı soyqırımı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində getdikcə geniş miqyas almış işlərin görüldüyünü, bunun nəticəsində Xocalı soyqırımının bir çox dövlətlərdə tanındığını göstərmiş, bu işdə Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla Əliyevanın reallaşdırdığı "Xocalıya Ədalət" kampaniyasının böyük əhəmiyyətini göstərmişdir. Rektor tarixi ədalətin zəfər çaldığını, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik

rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən erməni faşizmi üzərində Böyük Qələbə əldə etdiyini və bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu göstərmiş və DİA Tələbə Elmi Cəmiyyətinin Dəyirmi masasının əhəmiyyətindən danışmış, onun keçirilməsində tələbə və magistrantların fəal iştirak edəcəklərinə əminlik bildirmişdir.

DİA Tələbə Elmi Cəmiyyətinin sədri, “Politologiya və siyasi idarəetmə” kafedrasının professoru Sevil Məmmədovanın aparıcılığı ilə keçən müzakirələrdə “Tarix” kafedrasının müdiri Firdovsiyyə Əhmədova, həmin kafedranın professoru Həvva Məmmədova, magistrantlardan Aysel Mikayılova, Nurlan Umudov, Cahangir Həsənov, Ayşə Əlili, Aytac Adıgözəlli, Aysel Cəfərova, Rəşid Behbudov, tələbələrdən Seyidcahan Əlizadə, Elşad Məmmədov, Nigar İsmayılzadə, Sura Həsənova və b. çıxış etmiş, ətraflı fikir mübadiləsi aparılmış, tədbir iştirakçılarına təcavüzkar Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırım siyasəti, terror, erməni vandalizmi və barbarlığı haqqında əsl həqiqətlərin dünya birliyinə çatdırılmasında fəal iştirak etməklə, bununla bağlı sosial şəbəkələrin imkanlarından geniş istifadə olunması tövsiyə edilmişdir.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün təlim keçirildi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 06 mart 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov “Prezident İlham Əliyevin yeni dövlət idarəçiliyi texnologiyaları: Suverenliyə aparan yol” mövzusunda mühazirə ilə çıxış etdi.

Təlimdə, Azərbaycanın suverenliyinin tarixi və bu suverenliyi əldə etmək üçün Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm addımlar barədə ətraflı məlumat verilib. Akademik qeyd edib ki, Prezident İlham Əliyev ölkənin müstəqilliyini qorumaq və inkişafını təmin etmək üçün çoxsaylı islahatlar həyata keçirib, bu istiqamətdə dövlət idarəçiliyindəki təkmilləşdirmələr ölkənin güclənməsinə və beynəlxalq səviyyədə tanınmasına şərait yaradıb.

Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir çox uğurlara imza atılıb. Bu innovativ idarəetmə texnologiyalarının tətbiqi, ölkənin suverenliyini gücləndirmək və müstəqilliyini qorumaq məqsədini daşıyır.

Akademik təlim zamanı Azərbaycanın Konstitusiyasının əsas prinsiplərinin, o cümlədən suverenlik, müstəqillik və demokratik dəyərlərin qorunmasının, ölkə üçün mühüm bir zəmin yaratdığını qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin inkişaf strategiyasının bu dəyərlərə əsaslandığına xüsusi diqqət çəkilib.

Daha sonra rektor Urxan Ələkbərov vitse-prezidentlik institutunun yaradılması və Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsinin Azərbaycanın siyasi və idarəetmə strukturunda mühüm bir yenilik olaraq tarixə düşdüyünü qeyd edib. Belə ki, vitse-prezidentlik institutu, dövlətin idarəetmə qabiliyyətini daha da gücləndirərək, idarəetmə strukturunun çevikliyini artırıb və Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin inkişafı üçün əlavə bir dəstək mexanizmi təmin edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursu və bu ərazilərin “yaşıl enerji” zonasına




çevrilməsi, ölkənin suverenliyinin möhkəmləndirilməsi və müstəqilliyinin təmin olunması məqsədini güdür. Rektor, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə "Yaşıl Enerji Zonasının" yaradılması ilə bağlı irəli sürdüyü strateji baxışın, Azərbaycanın enerji təhlükəsizliyini artırmaq və bərpa olunan enerji sahəsində güclü bir mövqe əldə etmək məqsədi daşıdığını vurğulayıb.

Qeyd olunub ki, bu strateji addım Azərbaycanın yalnız iqtisadi inkişafını deyil, həm də milli suverenliyini və müstəqilliyini gücləndirir. Çünki enerji sahəsində özünə kifayət edən və bərpa olunan enerji mənbələrinə yönələn siyasət, ölkənin xarici enerji asılığını azaltmağa, eyni zamanda beynəlxalq səviyyədə enerji təhlükəsizliyi ilə bağlı mövqeyini möhkəmləndirməyə imkan verir. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bu təşəbbüslər, Azərbaycanın suverenliyinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm bir addım olaraq dəyərləndirilə bilər.

Təlim diskussiya formatında davam edib və uğurla başa çatıb.

### *Milli Məclisin deputatı Şahin İsmayılov DİA -da tələbələrlə görüşdü*

Martın 12-də Prezident yanında Dövlət İdarəçilik Akademiyasında "İctimai fəaliyyətin gənclərin şəxsi inkişafında təsiri" mövzusunda Milli Məclisin deputatı, Gənclər və idman komitəsinin və Qərbi Azərbaycan İcmasının Gənclər şurasının sədri Şahin İsmayılovla görüş keçirilib.

Tədbirin girişində Şahin İsmayılov rektor Urxan Ələkbərova yaratdığı şəraitə görə təşəkkürünü bildirdi. O, dövlət və gənclər siyasəti, gənclərin ali təhsil müəssisələrindəki tədrisi, seçdikləri ixtisaslar və gələcəkdə onları gözləyən perspektivlər haqqında müzakirə aparıb. Şahin İsmayılov bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra bütün taleyüklü məsələlərin həllinə düşünülmüş şəkildə start verdi. "Gənclər siyasəti də Ulu Öndərin diqqətindən yayınmamışdı. Gənclərin inkişafı üçün görülən bütün işlər ümumilikdə ölkənin hərtərəfli inkişafının təmin olunması üçün potensial kadr bazasının hazırlanması və vətənpərvər gənclərin yetişdirilməsinə istiqamətlənmişdi. Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsi zamanı da olduqca böyük qəhrəmanlıq göstərdilər. Məhz Ali Baş Komandanın rəhbərliyi və Azərbaycanın gənc əsgərlərinin şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu. Prezident İlham Əliyev də müharibə zamanı




gənclərimizin döyüşlərdə göstərdikləri şücaətdən geniş danışıb, onların Vətən uğrunda fədakarlıqlarını yüksək qiymətləndirib. Mən əminəm ki, Azərbaycan gəncliyi bundan sonrakı dövrdə də Azərbaycanın inkişafı üçün əllərindən gələni edəcək və Prezident İlham Əliyevin ətrafında daha sıx birləşəcəklər".

Rektorun müşaviri Zaur Məmmədov Şahin İsmayılova maraqlı diskussiya üçün minnətdarlığını bildirərək belə görüşlərin hər bir gəncin həyatında əhəmiyyət daşıdığını bildirdi.

Sonda millət vəkili tələbələrin suallarını cavablandırıb.

### *Xankəndi şəhərində suverenlik mövzusunda ilk tədbir keçirilib*

Qarabağ Universitetində "Konstitusiya və suverenlik ili" çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə birgə seminar keçirilib.

"Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları: suverenliyə aparan yol" mövzusuna həsr olunmuş tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov, DİA-nın Tarix kafedrasının professoru Həvva Məmmədova, DİA-nın ümumi işlər üzrə prorektoru Mirağa Seyidli, DİA-nın Elm və beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Elvin Əzizbəyov iştirak ediblər.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb və bildirib ki, Dövlət İdarəçilik Akademiyası tərəfindən həyata keçirilən tədbirin suverenliyimizin bərpa edildiyi torpaqlarda – Xankəndi şəhərində baş tutması əlamətdar hadisədir. Rektor Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Qarabağ Universitetinin qarşısına qoyulan strateji məqsədlərə çatmaq üçün yeni tərəfdaşlıqların qurulmasının əhəmiyyətli olduğunu qeyd edib. Ş.Bayramov əsas prioritetlərdən birinin Qarabağ Universitetinin elm və innovasiya mərkəzinə çevrilməsi olduğunu vurğulayaraq əlavə edib ki, burada təhsil alan tələbələr akademik biliklərə yiyələnməklə yanaşı, həm

də dövlətçilik məfkurəsi ətrafında birləşməlidir.

DİA-nın rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları: suverenliyə aparan yol" mövzusunda mühazirə ilə çıxış edərək idarəçilik prosesində uğurlu inkişafa təsir edən amillərdən bəhs edib. U.Ələkbərov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə tətbiq edilən müasir idarəetmə prinsipləri və strateji yanaşmalar dövlətimizin suverenliyinin qorunmasında və gücləndirilməsində böyük rola malikdir. O, idarəetmə sahəsindəki yeniliklərin, effektiv qərar qəbul etmə mexanizmlərinin və müasir texnologiyaların tətbiqinin Azərbaycanın beynəlxalq müstəvidə müstəqilliyini və gücünü artıran əsas amillərdən biri olduğunu bildirib.

Akademiyanın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov "Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesi və onun reallaşdırılması mexanizmləri" mövzusundakı çıxışında mövcud siyasi prosesin əhəmiyyətinə və qarşıya qoyulan hədəflərin realizasiyası üçün tələb olunan addımlara diqqət çəkib. E.Nəsirov qeyd edib ki, məhz suverenliyin tam şəkildə bərpa edildiyi tarixin ildönümündə Xankəndi şəhərində Qarabağ Universitetinin açılması suverenlik amillərinə söykənir.

DİA-nın Tarix kafedrasının professoru Havva Məmmədova "Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin bərpası: reallıqlar və perspektivlər" mövzusunda etdiyi çıxışda Azərbaycanın qədim və müasir tarixində ərazi bütövlüyü və suverenliyin bərpası prosesinin əhəmiyyətini nəzərə çatdırıb. Professor bildirib ki, Azərbaycanın bu məsələlərdəki mövqeyi regionda sabitliyin qorunması, iqtisadi inkişaf və ölkənin beynəlxalq əlaqələrinin gücləndirilməsi ilə sıx bağlıdır.

Akademiyanın Elm və beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Elvin Əzizbəyov "İnnovativ dövlət idarəçiliyinin rəqəmsal aspektləri" mövzusunda çıxış edərək dövrün tələblərinə cavab vermək üçün dövlət idarəçiliyi sahəsində innovativ yanaşmalar və texno-








logiyaların tətbiq edildiyini vurğulayıb. E.Əzizbəyov əlavə edib ki, "Elektron hökumət" formatlı rəqəmsal xidmətlər Azərbaycan dövlətinin rəqəmsal transformasiyasının mühüm hissəsini təşkil edir və bu proses idarəetmənin sadələşdirilməsi, vətəndaşların daha sürətli və asan xidmətlər əldə etməsini təmin edir.

### *Konstitusiya Məhkəməsi ilə Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb*

Martın 14-də Konstitusiya Məhkəməsində Prezident yanında Dövlət İdarəçilik Akademiyası və Konstitusiya Məhkəməsinin birgə təşkil etdiyi "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ dövlət idarəçiliyi siyasəti: suverenliyə aparan yol" mövzusunda seminar keçirilib.

Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan dinamik və sürətlə inkişaf edərək müasir iqtisadi və sosial cəhətdən dünyanın qabaqcıl ölkələri sırasında yer tutur. Gənclər bu siyasətin önündə getməli və ölkəmizdə həyata keçirilən quruculuq işlərində aparıcı qüvvə olmalıdırlar.



Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək bildirib ki, Konstitusiya Məhkəməsi ilə ali təhsil və elm müəssisələri arasında daim sıx əməkdaşlıq əlaqələri olub. Ona görə də gənclər arasında hüquqi biliklərin artırılması və onların dövlətin Əsas Qanununda təsbit edilmiş dəyər və prinsiplər haqqında məlumatlandırılmasına böyük diqqət yetirilir.

Tədbirdə Konstitusiya Məhkəməsi və Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

İmzalanma mərasimindən sonra çıxış edən Fərhad Abdullayev və Urxan Ələkbərov Memorandumun iki qurum arasında hüquqi əməkdaşlıq əlaqələrinin genişləndiriləcəyini bildiriblər.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim baş tutdu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 18 mart 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Res-




publikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: Suverenliyə aparan yol" mövzusunda mühazirə ilə çıxış etdi.

Təlimdə, Azərbaycanın suverenliyinin tarixi və bu suverenliyi əldə etmək üçün Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm addımlar barədə ətraflı məlumat verilib. Akademik qeyd edib ki, Prezident İlham Əliyev ölkənin müstəqilliyini qorumaq və inkişafını təmin etmək üçün çoxsaylı islahatlar həyata keçirib, bu istiqamətdə dövlət idarəçiliyindəki təkmilləşdirmələr ölkənin güclənməsinə və beynəlxalq səviyyədə tanınmasına şərait yaradıb.

Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi dövlət idarəçilik siyasətinin nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir çox uğurlara imza atılıb. Bu innovativ idarəetmə texnologiyalarının tətbiqi, ölkənin suverenliyini gücləndirmək və müstəqilliyini qorumaq məqsədini daşıyır.

Akademik təlim zamanı Azərbaycanın Konstitusiyasının əsas prinsiplərinin, o cümlədən suverenlik, müstəqillik və demokratik dəyərlərin qorunmasının, ölkə üçün mühüm bir zəmin yaratdığını qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin inkişaf strategiyasının bu dəyərlərə əsaslandığına xüsusi diqqət çəkilib.

Daha sonra rektor Urxan Ələkbərov vitse-prezidentlik institutunun yaradılması və Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsinin Azərbaycanın siyasi və idarəetmə strukturunda mühüm bir yenilik olaraq tarixə düşdüyünü qeyd edib. Belə ki, vitse-prezidentlik institutu, dövlətin idarəetmə qabiliyyətini daha da gücləndirərək, idarəetmə strukturunun çevikliyini artırıb və Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin inkişafı üçün əlavə bir dəstək mexanizmi təmin edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursu və bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi, ölkənin suverenliyinin möhkəmləndirilməsi və müstəqilliyinin təmin olunması məqsədini güdür. Rektor, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə "Yaşıl Enerji Zonasının" yaradılması ilə bağlı irəli sürdüyü strateji baxışın, Azərbaycanın enerji təhlükəsizliyini artırmaq və bərpa olunan enerji sahəsində güclü bir mövqe əldə etmək məqsədi daşıdığını vurğulayıb.

Qeyd olunub ki, bu strateji addım Azərbaycanın yalnız iqtisadi inkişafını deyil, həm də milli suverenliyini və müstəqilliyini gücləndirir. Çünki enerji sahəsində özünə kifayət edən və bərpa olunan enerji mənbələrinə yönələn siyasət, ölkənin xarici enerji asılılığını azaltmağa, eyni zamanda beynəlxalq səviyyədə enerji təhlükəsizliyi ilə bağlı mövqeyini möhkəmləndirməyə imkan verir. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bu təşəbbüslər, Azərbaycanın suverenliyinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm bir addım olaraq dəyərləndirilə bilər.

Təlim diskussiya formatında davam edib və uğurla başa çatıb.

## *DİA-nın rektoru beynəlxalq elmi-praktik konfransda çıxış edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru akademik Urxan Ələkbərov 20 mart 2025-ci il tarixində Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyası (Prezident Akademiyası) tərəfindən təşkil olunmuş "Dövlət idarəçilik sistemində şəxsiyyət" adlı VI beynəlxalq elmi-praktiki konfransda məruzə ilə çıxış etmişdir.



Konfransın plenar iclasında onlayn formatda çıxış edən rektor dövlət idarəçilik sistemlərində şəxsiyyətin rolu, yaxşı idarəetmənin əsas prinsipləri, Azərbaycan Respublikasında tətbiq edilən innovativ dövlət idarəçilik texnologiyaları və bu sahədə əldə edilmiş nailiyyətlər haqqında konfrans iştirakçılarına ətraflı məlumat verib.

## *Dövlət İdarəçilik Akademiyasının rektoru analitik proqramda çıxış edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Baku Network-da Tofiq Abbasovun qonağı olub. Söhbət zamanı Azərbaycanın inkişafının mühüm istiqamətləri, enerji transformasiyasında əldə etdiyi nailiyyətlər, iqtisadi artım və Cənubi Qafqazda geosiyasi vəziyyət müzakirə olunub.



https://www.youtube.com/watch?time_continue=1&v=wXKYyhO7yaY&embeds_referring_euri=https%3A%2F%2Fdia.edu.az%2F&source_ve_path=Mjg2NjY